27 (1282) 13-19 iyul 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır



## AZƏRBAYCANI DAVAMLI İNKİŞAFA APARAN RƏHBƏR

1969-cu ilin 14 iyulunda Heydər Əliyevin yekdilliklə Azərbaycan KP-MK-nın birinci katibi və büro üzvü seçilməsindən sonra Azərbaycan keçmiş SSRİ-nin ən qabaqcıl respublikalarından birinə çevrildi. İqtisadiyyat bir neçə dəfə gücləndi, çoxsaylı mədəniyyət mərkəzləri, idman sarayları inşa edildi, incəsənət, elm və təhsil xadimlərinə diqqət artdı.

## "İLİN SONUNADƏK İNFLYASİYA BİRRƏQƏMLİ SƏVİYYƏYƏ DÜŞƏ BİLƏR"

"İnflyasiyanın ikirəqəmli olması bizi düşündürməlidir. Ümid edirəm ki, ilin sonuna qədər inflyasiya birrəqəmli səviyyəyə düşə bilər".
Bu barədə Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə bildirib.
Burada təbii səbəblərlə yanaşı, subyektiv səbəblərin də olduğunu diqqətə çatdıran dövlətimizin başçısı deyib:
**"Onlar daha ciddi araşdırılmalıdır və ilin sonuna qədər atılacaq addımlarla bağlı təkliflər verilməlidir. Çünki Azərbaycanın bütövlükdə iqtisadi potensialı və iqtisadi sahədə əldə edilmiş nəticələr fonunda inflyasiyanın 12 faiz səviyyəsində olması, əlbəttə ki, arzuolunan deyil".**

## BÖYÜK QAYIDIŞ PROQRAMININ BİRİNCİ MƏRHƏLƏSİNDƏ 100 YAŞAYIŞ MƏNTƏQƏSİNİN YENİDƏN QURULMASI NƏZƏRDƏ TUTULUR

"Bizim büdcə dürüstləşməsindən sonra iki əsas istiqamətimiz Qarabağın, Şərqi Zəngəzurun bərpası və hərbi qüdrətimizin artırılması idi. Birinci istiqamətlə əlaqədar hər şey nəzərdə tutduğumuz planlardan daha sürətlə icra edilir. Bütün güclərimizi səfərbər etmişik".
Bu fikirləri Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə səsləndirib.
Artıq bu il Talış kəndinə və Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıtmasının təmin edildiyini söyləyən dövlətimizin başçısı deyib: **"İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər bizim artıq beş yaşayış məntəqəmizdə - bir şəhər və dörd kəndimizdə vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar. Bütövlükdə Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur".**

## "GƏDƏBƏY RAYONUNDA BAŞ VERMİŞ HADİSƏ TAMAMİLƏ QƏBULEDİLMƏZDİR"

"Ölkəmizin böyük hissəsi artıq rəsmən "yaşıl enerji" zonası elan edilib və bunun fonunda Gədəbəy rayonunda baş vermiş hadisə tamamilə qəbuledilməzdir".
Bu barədə Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə bildirib.
**"Mən hesab edirəm ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ən azı səhlənkarlığa yol verib, nəzarətsizlik nümayiş etdirib, passiv müşahidəçi kimi çıxış edib və bunun nəticəsində xarici investor bizim təbiətimizi zəhərləyib. İnsanlar haqlı olaraq öz etiraz səsini ucaldıblar, amma onların səsinə baxan olub? Yox! Bir gün, iki gün, üç gün, beş gün, hara baxırdı Ekologiya və Təbii Sərvətlər Nazirliyi? Bilmirdimi ki, belə problem var? Ya bilirdi gözünü yumurdu, ya da bilmirdi. Hər ikisi qəbul edilən deyil"**, - deyə dövlətimizin başçısı vurğulayıb.
Dövlətimizin başçısı Nazirlər Kabinetini, Ekologiya və Təbii Sərvətlər Nazirliyini tənqid edərək deyib: **"Mən demişəm, gedin orada camaatla danışın, o torpağın, havanın nümunələrini götürün, beynəlxalq ekspertləri cəlb edin ki, - çünki nazirlik bir halda bu hadisənin səbəbkarı olub, ola bilər ki, işi malalasın, - onlar rəy versinlər, bu yataqların istismarı nə dərəcədə insanların sağlamlığına, təbiətə zərərlidir, ya zərərli deyil? Bu günə qədər cavab yoxdur".**
Prezident tapşırıb ki, bir həftə ərzində həm ona, həm ictimaiyyətə məlumat verilməlidir və məsələ araşdırılmalıdır.

## "ƏMİNƏM Kİ, İLİN SONUNA QƏDƏR ÖLKƏMİZİN UĞURLU İNKİŞAFI TƏMİN EDİLƏCƏK"

Bunu Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə bildirib.
**"Bu ilin altı ayında isə əsas istiqamətimiz ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi idi. Deyə bilərəm ki, bütövlükdə altı ay ərzində iqtisadiyyatımız inkişaf edib, halbuki mütləq rəqəmlər o qədər də böyük deyil"**, - deyə dövlətimizin başçısı qeyd edib.



## "BU GÜN BİZİM BÜDCƏMİZ 36 MİLYARD MANATDAN ÇOXDUR"

"Onsuz da bizim builki dövlət büdcəmiz rekord həddə, 33 milyard manatdan çox səviyyəyə qalxmışdır. Ancaq ilin birinci yarısında əlavə gəlirlərin əldə edilməsi imkan verdi ki, biz təcili həllini gözləyən məsələləri daha tez zamanda həll etmək üçün büdcəyə əlavələr edək və bunu etdik".
Bu sözləri Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə söyləyib.
Bu gün ölkəmizin büdcəsinin 36 milyard manatdan çox olduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: **"Əlbəttə, bu, bizə imkan verir ki, həm ölkə qarşısında duran əsas investisiya layihələrini icra edək, ilk növbədə, azad edilmiş torpaqlarda geniş quruculuq işlərinə növbəti təkan verək və hərbi gücümüzü artıraq".**

## "AZƏRBAYCANIN XARİCİ BORCU CƏMİ 6,7 MİLYARD DOLLARDIR"

"Bir neçə il bundan əvvəl biz qarşıya hədəf qoymuşduq ki, xarici dövlət borcumuz ümumi daxili məhsulumuzun 10 faizinin altında olsun. Biz artıq bu hədəfə də çatdıq".
Bu sözləri Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə deyib.
Dövlətimizin başçısı bildirib ki, mütləq rəqəmlərdə bizim borcumuz cəmi 6,7 milyard dollardır və bu da ümumi daxili məhsulumuzun təxminən 10 faizini təşkil edir. Ölkələrin böyük əksəriyyətinin nəinki ixrac, daha çox idxal etdiyini vurğulayan dövlətimizin başçısı deyib: **"Xarici ticarət balansımızın profisiti çox böyük səviyyədədir. Bizdə isə bu, tam əksinədir və ilin birinci altı ayında bizim profisitimiz təqribən 10 milyard dollara yaxındır. Əgər bu templər qorunsa, təsəvvür edin, biz ilin sonuna qədər hansı rəqəmlərə çatacağıq. Təbii ki, bunun birbaşa təsiri makroiqtisadi sabitliyin təmin edilməsinədir".**

## "LAÇIN ŞƏHƏRİNİN GƏLƏCƏK İNKİŞAF PLANI İLƏ BAĞLI ƏLAVƏ ADDIMLAR ATILACAQ"

"Mən Laçın şəhərinin timsalında bunu deyə bilərəm ki, cəmi səkkiz ay ərzində şəhərin böyük hissəsi tamamilə bərpa edilib və yeddi yüzdən çox ailə üçün burada həm fərdi evlər, həm çoxmənzilli evlər hazırlanır".
Bu fikirləri Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə səsləndirib.
"Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar da atılacaq. Biz bu sahədə görüləcək işləri daim diqqət mərkəzində saxlamalıyıq. Mənim gündəlik fəaliyyətimdə bu məsələ bu gün birinci yerdə dayanan məsələdir və biz daim bütün işlərə nəzarət edirik", - deyə dövlətimizin başçısı vurğulayıb.
O, deyib: **"Azad edilmiş bölgələrdə biz hər şeyi planlı şəkildə edirik və ən yüksək standartlar orada tətbiq edilir. Bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura biz təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsini təmin edəcəyik".**

## "SÜLH DANIŞIQLARI İLƏ BAĞLI MÖVQEYİMİZ AYDINDIR"

"Bizim sülh danışıqları ilə bağlı mövqeyimiz aydındır, məntiqlidir, beynəlxalq hüquqa əsaslanır. Hesab edirəm ki, bu prinsiplə, beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh müqaviləsi imzalana bilər".
Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə səsləndirib.
Belə imkanların olduğunu hesab etdiyini vurğulayan dövlətimizin başçısı deyib: **"Son danışıqlar raundları və bir neçə gündən sonra nəzərdə tutulan yüksək səviyyəli təmaslar bir məqsədi güdür ki, biz sülh anlaşmasına daha da yaxınlaşaq. Biz bunu arzulayırıq, bunu təşəbbüskar kimi irəli sürmüşük".** Dövlətimizin başçısı deyib ki, ancaq hər şey bizdən asılı deyil, qarşı tərəf də buna hazır olmalıdır və sözdə ifadə etdiyi prinsipləri kağız üzərinə də keçirməlidir.
Son müsbət məqamlardan biri odur ki, Ermənistan tərəfinin mövqeyində müsbətə doğru hərəkət var.
**"Əgər keçən ilin oktyabrında Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərini qəbul etmişdirsə, bu ilin may ayında daha irəli gedərək artıq Azərbaycan ərazisinin parametrlərini də, o cümlədən Qarabağ və anklav kəndlərimiz daxil olmaq şərtilə rəsmən tanıyıb"**, - deyən dövlətimizin başçısı diqqətə çatdırıb ki, bu, müsbət hal kimi qiymətləndirilməlidir. İndi sıra gəlib çatıb ki, eyni sözlər kağız üzərində də öz təsdiqini tapsın, imzalar atılsın və münasibətlər yaradılsın.

# “ABŞERON” QAZ-KONDENSAT YATAĞINDAN İLKİN QAZIN ÇIXARILMASI ÇOX ƏHƏMİYYƏTLİ HADİSƏDİR”



“Bu günlərdə “Abşeron” qaz-kondensat yatağından ilkin qazın çıxarılması doğrudan da çox əhəmiyyətli hadisədir.
Çünki bu günə qədər bizim ixracla bağlı əsas qaz resursumuz “Şahdəniz” qaz-kondensat yatağı idi”.
Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə deyib.
Dövlətimizin başçısı bildirib: **“Abşeron” qaz yatağı ilə bağlı bizim ümidlərimiz böyük idi. Bilirdik ki, “Abşeron” qaz-kondensat yatağı böyük ehtiyatları özündə ehtiva edir. Bir neçə gün bundan əvvəl mənə məlumat verildi ki, ilkin qaz hasil edildi, debitlər də çox yaxşıdır. Hətta bir quyudan “Şahdəniz” qaz yatağından da daha çox qaz və kondensat hasil edilir. ...Bu, bizim həm enerji təhlükəsizliyimizi daha yüksək səviyyədə təmin edəcək, həm də ixraca gedən qazın həcmi ildən-ilə artacaq - təkcə “Şahdəniz” yatağı hesabına deyil, o cümlədən “Abşeron” yatağı hesabına”.**

# BEYNƏLXALQ ƏDALƏT MƏHKƏMƏSİ ERMƏNİSTANIN 12 MAY TARİXLİ TƏLƏBİNİ YEKDİLLİKLƏ RƏDD EDİB

Beynəlxalq Ədalət Məhkəməsinin iyulun 11-də dərc edilmiş 2023-cü il 6 iyul tarixli qərarında qeyd edildiyi kimi, məhkəmə İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi üzrə Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı Ermənistanın Azərbaycana qarşı məhkəmə işi üzrə 22 fevral 2023-cü il tarixli Qərarında dəyişiklik edilməsi məqsədilə Ermənistanın 2023-cü il 12 may tarixli tələbini yekdilliklə rədd edib.
Bu barədə Xarici İşlər Nazirliyindən məlumat verilib.
Beləliklə, məhkəmə, Qərarı ilə bir daha təsdiq edib ki, “2023-cü il aprelin 23-dən etibarən Laçın dəhlizində və ya onun boyunca yerləşdirilən hər hansı bir və bütün şəxsi heyəti geri çəkməyi və belə şəxsi heyətin Laçın dəhlizi üzərində və ya Laçın dəhlizi boyu yerləşdirilməsindən çəkinməyi Azərbaycandan tələb edən əlavə müvəqqəti tədbiri daxil etməklə” 2023-cü il 22 fevral tarixli Qərara dəyişiklik etmək barədə Ermənistanın tələbi əsassızdır.
Ermənistanın yalanlarının əksinə, Beynəlxalq Ədalət Məhkəməsi nəzarət-buraxılış məntəqəsinin Laçın yolu boyunca hərəkətə mane olduğunu və Azərbaycanın 22 fevral Qərarını pozduğunu müəyyən etməyib.
Ermənistanı tərəflərin mübahisəsini daha da gərginləşdirə biləcək hər hansı hərəkətdən çəkinmək barədə məhkəmənin Qərarına əməl etməyə və Laçın sərhəd buraxılış məntəqəsinin fəaliyyətinə maneə törədən davranışa son qoymağa çağırırıq.

# “ERMƏNİSTAN TƏBİƏTİMİZƏ BÖYÜK ZƏRBƏ VURUB”

“Ermənistan həm Ermənistandakı müəssisələrin fəaliyyəti nəticəsində, eyni zamanda, o vaxt işğal edilmiş torpaqlarda - Qarabağda və Şərqi Zəngəzurda təbii resurslarımızın vəhşicəsinə istismarı nəticəsində təbiətimizə böyük zərbə vurub”. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə söyləyib.
**“Təkcə onu demək kifayətdir ki, 60 min hektardan çox meşə fondu ermənilər tərəfindən dağıdılıb, talan edilib, çıxarılıb, satılıb, yaxud parket düzəldiblər və satıblar”**, - deyə dövlətimizin başçısı bildirib.
İndi transsərhəd təhlükələrinin mütləq nəzərə alınmalı olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev Azərbaycanın burada sərgilədiyi mövqenin beynəlxalq təcrübəyə, beynəlxalq konvensiyalara, o cümlədən Espo Konvensiyasına əsaslandığını qeyd edib.
**“Son müsbət məqamlardan biri odur ki, Ermənistan tərəfinin mövqeyində müsbətə doğru hərəkət var. Əgər keçən ilin oktyabrında Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərini qəbul etmişdirsə, bu ilin may ayında daha irəli gedərək artıq Azərbaycan ərazisinin parametrlərini də, o cümlədən Qarabağ və anklav kəndlərimiz daxil olmaq şərtilə rəsmən tanıyıb”**, - deyən dövlətimizin başçısı diqqətə çatdırıb ki, bu, müsbət hal kimi qiymətləndirilməlidir. İndi sıra gəlib çatıb ki, eyni sözlər kağız üzərində də öz təsdiqini tapsın, imzalar atılsın və münasibətlər yaradılsın.

# “AZƏRBAYCANLA HƏDƏ-QORXU, ULTİMATUM DİLİ İLƏ HEÇ KİM DANIŞA BİLMƏZ”

“Bu gün dünyada güc amili önplandadır və güclə hesablaşırlar, gücdən çəkinirlər. Biz son iki il yarım ərzində bir neçə dəfə bunu bir neçə ünvana göstərmişik və heç kim bizim iradəmizə təsir edə bilməz”.
Bunu Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə deyib.
“Əksinə, bizə qarşı tuşlanmış bütün oxları sındırıb öz ləyaqətimizi qoruya bilmişik və maraqlarımızı qoruya bilmişik, daha əlavə sözlərə ehtiyac yoxdur, hər şey göz qabağındadır. Necə deyərlər, dərinə getmək istəmirəm, amma bunu artıq hər kəs görür, görməlidir və bilməlidir ki, Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kim danışa bilməz və hesab edirəm ki, bundan sonra belə cəhdlər də olmayacaq”, - deyə dövlətimizin başçısı vurğulayıb.

# “BİZ ÖZÜMÜZÜ QORUMAQ ÜÇÜN DAHA GÜCLÜ OLMALIYIQ”

“Dünyada qaydalar tamamilə pozulub, davranış qaydalarına, beynəlxalq hüquqa əməl edilmir. Biz demək olar ki, bunu hər gün görürük. Böyük dövlətlər, hansılar ki, beynəlxalq hüququn təminatçısı rolunu öz üzərinə götürüblər, birinci onlar bu hüququ pozurlar və sonra da onu əsaslandırırlar”.
Bu barədə Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə bildirib.
Bütün böyük ölkələrin beynəlxalq hüquq normalarını pozduğunu qeyd edən dövlətimizin başçısı deyib: “Ona görə, əlbəttə ki, biz, ilk növbədə, özümüzü qorumaq üçün, öz müstəqilliyimizi qorumaq üçün, seçimimizi qorumaq üçün, həyat tərzimizi qorumaq üçün, ərazi bütövlüyümüzü qorumaq üçün daha güclü olmalıyıq. İkinci Qarabağ müharibəsi başa çatandan sonra biz dayanmadan bu istiqamətdə çox ciddi addımlar atmışdıq və mən bunu artıq bildirmişəm, bir də demək istəyirəm, bu gün Azərbaycan Silahlı Qüvvələri daha böyük hərbi potensiala malikdir. Həm döyüş qabiliyyəti, həm silah və texnika ilə təchizat baxımından daha da güclü olacağıq, çünki bu proses dayanmır və dayanmamalıdır”.

# “BEYNƏLXALQ HÜQUQA, BEYNƏLXALQ TƏŞKİLATLARIN QƏTNAMƏLƏRİNƏ BEL BAĞLAMAQ OLMAZ”



“Mənim uzun illər dediyim sözlər bu gün əyani şəkildə özünü büruzə verir. Dünyanın müxtəlif yerlərində beynəlxalq hüquq işləmir. Beynəlxalq hüquqa, beynəlxalq təşkilatların qərarlarına, qətnamələrinə bel bağlamaq olmaz”.
Bu barədə Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə bildirib.
Ölkəmizin həmişə hüququn, o cümlədən beynəlxalq hüququn tərəfdarı olduğunu diqqətə çatdıran dövlətimizin başçısı deyib ki, biz həmişə ədalətin tərəfdarı idik, bu gün də ədalətin və beynəlxalq hüququn tərəfdarıyıq, beynəlxalq müstəvidə bu mövqeyi müdafiə edirik.

# TBMM-İN SƏDRİ: BU SƏFƏR TÜRKİYƏNİN AZƏRBAYCAN VƏ TÜRK DÜNYASI İLƏ ƏLAQƏLƏRİNƏ TÖHFƏ VERƏCƏK



“Türkiyə, Azərbaycan və Şimali Kipr “bir millət, üç dövlət” anlayışı ilə hərəkət edən yaxın ölkələrdir. Ümid edirik ki, bu səfərimiz Türkiyənin Azərbaycan və Türk dünyası əlaqələrinə töhfə verəcək”. Bu sözləri jurnalistlərə açıqlamasında Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuş söyləyib.
Türkiyənin son dərəcə güclü bir ölkə kimi dost və qardaş dövlətlərlə birgə daha da inkişaf edəcəyini bildirən TBMM sədri deyib:
**“Bizim Azərbaycana səfərimizin başqa bir mənası var. Bu, türk dövlətləri ilə münasibətlərimizin inkişaf etdirilməsinə daha bir mesajdır. Məqsədimiz gələcəkdə Türk dünyasının dünya siyasətində çox güclü iştirakını təmin etmək, bunun üçün bütün sahələrdə əməkdaşlığımızı mükəmməl səviyyəyə çıxara bilməkdir”.**

# AZƏRBAYCANLA TÜRKİYƏ ARASINDA DOSTLUQ VƏ QARDAŞLIQ MÜNASİBƏTLƏRİ UĞURLA İNKİŞAF EDİR



İyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşu qəbul edib.
Numan Kurtulmuş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb.
Dövlətimizin başçısı Türkiyədə keçirilmiş prezident və parlament seçkilərində qələbə münasibətilə bir daha təbriklərini çatdırdı.
Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlərarası sahədə uğurla inkişaf etdiyi məmnunluqla vurğulanıb. Numan Kurtulmuşun səfərinin əlaqələrimizin inkişafına töhfə verəcəyi qeyd olunub.
Söhbət zamanı Türk Dövlətləri Təşkilatının daha da gücləndirilməsinin, bu təşkilat və TÜRKPA formatında əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyi vurğulanıb.

# II rübdə maliyyə axınları üzrə iqtisadi fəaliyyət sahələrinin göstəriciləri açıqlanıb




İkinci rübdə maliyyə axınları üzrə ötən ilin eyni dövrü ilə müqayisədə yeddi iqtisadi fəaliyyət sahəsində azalma, digərlərində isə artım qeydə alınıb.
Ən çox artım nəqliyyat və anbar təsərrüfatı (70 faiz), elektrik enerjisi, qaz və buxar təchizatı (55 faiz) və peşə, elmi və texniki fəaliyyət (38 faiz) sahələrində olub. Ən çox azalma isə su təchizatı (-19 faiz), digər sahələrdə xidmətlərin göstərilməsi (-16 faiz) və maliyyə və sığorta fəaliyyəti (-15 faiz) sektorlarında müşahidə edilib.
Nəqliyyat və anbar təsərrüfatı iqtisadi fəaliyyət sahəsi üzrə ödəniş daxilolmaları ötən ilin eyni rübünə nəzərən 70 faiz və ya 547,9 milyon manat artaraq 1329 milyon manat təşkil edib. Bu sahədə artıma töhfə verən əsas qruplar poçt fəaliyyəti (353,5 milyon manat artım), hava nəqliyyatı vasitəsilə sərnişinlərin daşınması (85,5 milyon manat artım) və yük avtomobil nəqliyyatlarının fəaliyyəti (32,5 milyon manat artım) olub.
Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı iqtisadi fəaliyyət sahəsi üzrə ödəniş daxilolmaları 989,7 milyon manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 55 faiz çoxdur. Artım əsasən qazın istehsalı və bölüşdürülməsi qrupundan irəli gəlib, bu qrup üzrə ödəniş daxilolmaları 11,1 dəfə və ya 362 milyon manat artaraq 397,8 milyon manat təşkil edib.
Peşə, elmi və texniki fəaliyyət sahəsində maliyyə axınlarının məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 38 faiz və ya 292,8 milyon manat artaraq 1055 milyon manat təşkil edib.
Mədənçıxarma sənayesi sahəsi üzrə maliyyə axınları ötən ilin eyni dövrü ilə müqayisədə 36 faiz artaraq 2,4 milyard manat təşkil edib.

# İslam İnkişaf Bankı azad edilmiş ərazilərin reinteqrasiyasına töhfə verməyə hazırdır



İqtisadiyyat naziri Mikayıl Cabbarov İslam İnkişaf Bankı Qrupunun Türkiyə Regional Ofisinin direktoru Valid Məhəmməd Abdelvahab ilə görüşüb.
Nazirlikdən bildirilib ki, iqtisadiyyat naziri Azərbaycanın İslam İnkişaf Bankı Qrupu ilə münasibətlərin inkişafında maraqlı olduğunu, Bankın ölkəmizdə iqtisadi inkişaf, o cümlədən özəl sektorun fəaliyyətinin genişlənməsi istiqamətində göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini vurğulayıb. Qeyd edilib ki, İslam İnkişaf Bankı Qrupunun Azərbaycan iqtisadiyyatının inkişaf prioritetlərini dəstəkləmək üçün Ölkə üzrə Əməkdaşlıq Çərçivəsini hazırlamaq təşəbbüsü də bu baxımdan xüsusi qeyd olunmalıdır. Həmin sənəddə ölkəmizin sosial-iqtisadi inkişafına dair Milli Prioritetlərinə müvafiq olaraq, bərpa olunan enerji, işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması, həmçinin rəqəmsal transformasiya və digər istiqamətlərdə dəstək nəzərdə tutulur.
Valid Məhəmməd Abdelvahab bankın Azərbaycanın sosial-iqtisadi inkişafına, o cümlədən azad edilmiş ərazilərimizin reinteqrasiyasına töhfə verməyə hazır olduğunu vurğulayıb, tərəfdaşlığın inkişaf istiqamətləri barədə fikirlərini bölüşüb.
Tərəflər ölkəmizin sosial-iqtisadi inkişaf hədəfləri, prioritet sahələr, o cümlədən, azad edilmiş ərazilərimizdə reallaşdırılan layihələr üzrə əməkdaşlığın gücləndirilməsi barədə müzakirə aparıblar.

# Macar şirkətləri azad edilmiş ərazilərdə həyata keçirilən layihələrdə iştiraka maraq göstərirlər



İqtisadiyyat naziri Mikayıl Cabbarov Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə görüşüb.
Nazirlikdən bildirilib ki, görüşdə Macarıstanla münasibətlərin inkişafının artan dinamikasının, qarşılıqlı rəsmi səfərlərin, yüksək səviyyəli görüşlərin, keçirilmiş tədbirlərin, geniş müqavilə-hüquq bazasının iqtisadi əlaqələrin genişlənməsində mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb. Qeyd edilib ki, ölkələrimiz təkcə ikitərəfli platformalarda deyil, həm də çoxtərəfli səviyyədə əməkdaşlıq edirlər. Bununla yanaşı, Azərbaycan Respublikası hökuməti və Macarıstan Respublikası hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiya iqtisadi və ticarət əlaqələrinin möhkəmlənməsində və müxtəlif sahələrdə layihələrin həyata keçirilməsində önəmli rol oynayır.
Görüşdə Azərbaycanın sosial-iqtisadi hədəfləri və onlara nail olunması məqsədilə görülən işlər, əldə edilən nəticələr, ölkəmizin əlverişli işgüzar mühiti, yeni reallıqlar şəraitində artan nəqliyyat-tranzit potensialı, sərmayədarlar üçün yaradılan imkanlar barədə məlumat verilib.
Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ölkəsinin Azərbaycanla əməkdaşlığın genişləndirilməsinə önəm verdiyini vurğulayıb, macar şirkətlərinin azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələrdə iştiraka maraq göstərdiklərini bildirib, iqtisadi əlaqələrin genişləndirilməsi barədə danışıb.

# İlin sonunadək Azərbaycandan Macarıstana qaz təchizatına başlanılacaq

Energetika naziri Pərviz Şahbazov ilə Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto arasında görüş olub.
Nazirlikdən bildirilib ki, görüşdə Azərbaycan ilə Macarıstan arasında ikitərəfli və çoxtərəfli əsasda enerji tərəfdaşlığının inkişafından, Enerji üzrə İşçi Qrupu çərçivəsində bütün istiqamətləri əhatə edən əməkdaşlığın hazırki səviyyəsindən məmnunluq ifadə edilib. Təbii qaz və "yaşıl enerji"nin tədarükü üzrə fikir mübadiləsi aparılıb. "Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq sazişi, "Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında əməkdaşlığa dair Anlaşma Memorandumu", həmçinin "SOCAR" ilə "MVM CEEnergy Zrt." arasında 100 milyon kubmetr həcmində təbii qazın satışına dair müqavilə"nin icra vəziyyəti nəzərdən keçirilib.



# Ələt Azad İqtisadi Zonasında tikiləcək zavodda 300-dən çox iş yeri yaradılacaq



İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərbaycan İnvestisiya Şirkəti" ASC (AİŞ) və Macarıstanın "Hell Energy" şirkəti arasında Birgə İştirak Müqaviləsinin imzalanmasına həsr olunmuş tədbir keçirilib.
Nazirlikdən bildirilib ki, tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov layihənin ölkələrimizin biznes dairələrinin əməkdaşlığının gücləndirilməsinə, Azərbaycanda qeyri-neft sektorunun davamlı artımına, yerli istehsala və məşğulluğun təmin edilməsinə töhfə verəcəyini qeyd edib. Vurğulanıb ki, qarşılıqlı hörmətə əsaslanan Azərbaycan-Macarıstan əlaqələri yüksələn xətlə inkişaf edir, iqtisadi-ticarət əməkdaşlığı genişlənir. Qeyd olunub ki, Macarıstanla ticarət, sənaye, enerji, o cümlədən bərpa olunan enerji, investisiya və digər istiqamətlər üzrə əməkdaşlığın inkişafı üçün böyük perspektivlər var. İqtisadiyyat naziri Ələt Azad İqtisadi Zonasının imkanlarının yerli və xarici investorlar, o cümlədən Macarıstan investorları üçün geniş imkanlar açdığını bildirərək, yeni birgə layihələrin həyata keçiriləcəyinə əminliyini ifadə edib.
Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov rəhbəri olduğu qurumun fəaliyyəti, "Hell energy" şirkətinin icraçı direktoru Barbabas Çerekly və AİŞ-in icraçı direktoru Ülvi Mansurov isə layihə barədə məlumat veriblər. Tədbirdə layihənin təqdimatına dair videoçarx nümayiş etdirilib.
Tədbir çərçivəsində AİŞ və "Hell Energy" şirkəti arasında Birgə İştirak Müqaviləsi imzalanıb.

# KOBİA və Türkiyənin Bilişim Vadisi əməkdaşlıq edəcək

Azərbaycanın mikro, kiçik və orta sahibkarlıq subyektləri və startapları Bilişim Vadisinin Türkiyədəki filiallarının və Azərbaycan Texniki Universitetində fəaliyyət göstərən "Bilişim Vadisi Bakı" filialının imkanlarından istifadə edə biləcəklər.
Bununla bağlı iyulun 10-da "Bakı KOB evi"ndə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Türkiyənin Bilişim Vadisi arasında əməkdaşlığa dair Niyyət Protokolu imzalanıb. Sənədi KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və Bilişim Vadisinin Baş direktoru Ahmet Serdar İbrahimcioğlu imzalayıblar. Sənəddə İKT sahəsində yerli müəssisələrin və startapların "Bilişim Vadisi Bakı"nın imkanlarından istifadə etməsi, Türkiyənin Bilişim Vadisi tərəfindən təşkil edilən proqramlar və digər tədbirlərdə Azərbaycanda fəaliyyət göstərən yerli müəssisələrin iştirakına şərait yaratmaqla onların inkişafına töhfə vermək, "Bilişim Vadisi Bakı" ilə birgə sahibkarlıq sahəsində birgə tədbirlərin həyata keçirilməsi, təlim, konfrans və digər tədbirlərin təşkili, təcrübə mübadiləsi kimi məsələlər öz əksini tapıb. Niyyət Protokolunda, həmçinin "Bilişim Vadisi Bakı"nın iştirakçısı olacaq şirkətlərin "Startap" şəhadətnaməsi və qrant dəstəyindən yararlanması, KOBİA-nın dəstəyi ilə keçirilən sərgilərdə iştiraka dəstək göstərilməsi də nəzərdə tutulur.
Tədbir çərçivəsində KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və Bilişim Vadisinin Baş direktoru Ahmet Serdar İbrahimcioğlu arasında görüş keçirilib. Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyevin də iştirak etdiyi görüşdə tərəflər arasında imzalanmış sənəddən irəli gələn məsələlər, əməkdaşlıq imkanları müzakirə olunub. Həmçinin Türkiyənin Bilişim Vadisinin nümayəndələri "Bakı KOB evi"ndə fəaliyyət göstərən Startap Mərkəzində yaradılmış imkanlarla tanış olublar.

# 2025-ci ildə Ələt Azad İqtisadi Zonasında "Hell Energy" zavodu istifadəyə veriləcək

Macarıstanın "Hell Energy" şirkəti 2025-ci ildə Azərbaycanda alüminium içki qutularının istehsalı və doldurulması zavodunu istifadəyə verməyi planlaşdırır.
"2025-ci ildə açılacaq zavodda (Azərbaycanda – İF) illik 700-800 milyon ədəd alüminium içki qutuları istehsal ediləcək (və onların doldurulması)", – deyə "Daily News Hungary" nəşrinin məlumatında bildirilir. Nəşr Macarıstan hökumətinin məlumatlarına istinadən qeyd edir ki, zavodda istehsal olunan alüminium bankların təxminən yarısı yerli və regional içkilər üçün nəzərdə tutulacaq. Bundan əlavə, Macarıstan və bir sıra digər ölkələrdə bazarda lider olan "Hell Energy" şirkəti zavoddan öz yerli və regional bazarlarına xidmət göstərmək üçün istifadə edəcək. Xəbər verildiyi kimi, iyulun 10-da "Azərbaycan İnvestisiya Şirkəti" ASC (AİŞ) ilə Macarıstanın "Hell Energy" şirkəti arasında birgə iştirak müqaviləsi imzalanıb. Dəyəri $211 milyon həcmində qiymətləndirilən layihə Azərbaycanda alüminium içki qutularının istehsalı və doldurulması üzrə zavodun inşasını nəzərdə tutur. Layihənin icrası 300-dən çox iş yeri yaratmağa imkan verəcək.



# Qarabağ və Şərqi Zəngəzurda sənaye parklarına investisiyalar $113.5 milyon həcmində qiymətləndirilir



Ağdam Sənaye Parkı və "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının ərazilərində müəssisələrin yaradılmasına sərmayələr ümumilikdə 193 milyon manat ($113.5 milyon) həcmində qiymətləndirilir.
Bu barədə İqtisadi Zonaların İnkişafı Agentliyinin İnvestisiya və iqtisadi təhlil şöbəsinin müdiri Emil Hacıyev məlumat verib.
Onun sözlərinə görə, hazırda Ağdam Sənaye Parkının rezidentlərinin sayı 17, qeyri-rezidentlərin – 5-ə çatıb. "Bu investorlar tərəfindən Sənaye Parkına 161 milyon manatdan çox investisiyanın yatırılması, 1.4 mindən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulur. Sahibkarlar tərəfindən Ağdam Sənaye Parkında müxtəlif ölçüdə metal profillərin, eləcə də anbar stellajlarının, boru və qutu profillərin, alçı, eksteryer suvaq, dolğu və izolyasiya materiallarının, havalandırma, yanğınsöndürmə avadanlıqları və müxtəlif metal məmulatların, müxtəlif növ dəmir məmulatların, elektrik paylayıcı avadanlıqların və elektrik yuvaların, avtomatlaşdırma və telemexanika sistemlərinin, divar kağızlarının, müxtəlif çeşiddə sintetik xalçaların, prefabrik dəmir-beton məmulatların və s. istehsalı müəssisələri inşa ediləcək", – Hacıyev deyib.
Həmçinin, o məlumat verib ki, hazırda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidentlərinin sayı 5-ə çatıb, 1 qeyri-rezidenti var.
Hacıyevin sözlərinə görə,investorlar tərəfindən ümumi olaraq Sənaye Parkına 32 milyon manatdan çox investisiyanın yatırılması, 400-dən artıq iş yerinin yaradılması planlaşdırılır.

# İş fəaliyyətinin davamlılığının təmin edilməsinə dair yeni standart qəbul olunub

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) tərəfindən ISO 22301:2019 "Security and resilience. Business continuity management systems Requirements" beynəlxalq standart əsasında AZS ISO 22301:2023 "Təhlükəsizlik və davamlılıq. Fəaliyyətin (biznesin) davamlılığının idarəetmə sistemləri. Tələblər" dövlət standartı qəbul edilib.
AZSTAND-dan bildirilib ki, iş fəaliyyətinin davamlılığının təmin edilməsi uğurlu idarəetmənin əsasını təşkil edir. Hər bir müəssisə, təşkilat və biznes subyekti fəaliyyətin pozulmasına səbəb olan hadisələrlə qarşılaşa bilər. Bu zaman potensial riskləri və bu risklərin fəaliyyətə təsirlərini müəyyən edən, o cümlədən maraqlı tərəflərin maraqlarını və nüfuzunu qorumaqla təşkilatın dayanıqlığını təmin edən vahid idarəetmə sisteminə zərurət yaranır.
Bu standart dövlət qurumlarında, özəl müəssisə və təşkilatlarda, səhiyyə müəssisələrində, tikinti şirkətlərində xüsusilə bank, sığorta və telekommunikasiya kimi müəyyən sahələrdə iş fəaliyyətinin fasiləsizliyinin təmin edilməsi böyük əhəmiyyətə malikdir. İş fəaliyyətinin (biznesin) davamlılığının idarəedilməsi təşkilatda baş verə biləcək potensial risklərin və fəaliyyət pozulmalarının qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsinə imkan verəcək.




# TotalEnergies Azərbaycanda qaz-kondensatının hasilatına başlayır




Fransanın TotalEnergies neft-qaz nəhəngi Azərbaycanın SOCAR şirkəti ilə birgə işlədiyi "Abşeron" yatağında qaz hasilatına başladığını elan edib.
Bununla bağlı "Le Figaro" qəzetində TotalEnergies şirkətinin məlumatına istinadla məqalə dərc olunub.
Məqalədə bildirilir ki, qaz-kondensat yatağının işlənməsinin birinci mərhələsində gündəlik 4 milyon kubmetr qaz və 12 min barel kondensat hasil ediləcək. Vurğulanır ki, 2016-cı ildə SOCAR və "TotalEnergies" arasında saziş imzalanarkən yatağın gücü kondensatın əhəmiyyətli hissəsi də daxil olmaqla, sutkada təxminən 35 min barel neft ekvivalentində qiymətləndirilirdi. Şirkətlərin hər biri layihədə 50 faiz paya malikdir.
Fransa kompaniyasının kəşfiyyat-hasilat üzrə baş meneceri Nikolas Terraz bildirib ki, bu layihə şirkətin qaza artan tələbatı ödəmək strategiyasının bir hissəsidir və SOCAR ilə tərəfdaşlığı daha da gücləndirir.

# İyun ayında ölkədə gündəlik 500 min barel xam neft hasil olunub

Cari ilin iyun ayında respublikada gündəlik neft (kondensatla birlikdə) hasilatı 610 min barel olub. Bunun 500 min barelini xam neft, 110 min barelini isə kondensat təşkil edib.
Bu barədə Energetika Nazirliyindən bildirilib.
Qeyd edək ki, "OPEC plus" əməkdaşlığı çərçivəsində 2023-cü ilin sonuna kimi Azərbaycanın ixtisarlarla bağlı öhdəliyi gündəlik 33 min barel, gündəlik xam neft hasilatı üzrə kvotası isə 684 min bareldir.



# İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən fərdi sahibkara vergi güzəşti tətbiq olunurmu?

İşğaldan azad olunmuş ərazilərdə fərdi sahibkar kimi tikinti materiallarının topdansatışı ilə məşğul olan şəxsə vergi güzəşti tətbiq edilirmi?
Dövlət Vergi Xidmətindən AZƏRTAC-ın sualına cavab olaraq bildirilib ki, Vergi Məcəlləsinin 2023-cü il yanvarın 1-dən qüvvəyə minmiş müddəalarına əsasən, topdansatış ticarət, tikinti və xidmət (əhaliyə göstərilən xidmətlər istisna olmaqla) sahələri üzrə vergi azadolması işğaldan azad edilmiş ərazidə vergi uçotuna alınan və malları (işləri, xidmətləri) işğaldan azad edilmiş ərazinin rezidentlərinə təqdim edən hüquqi və fiziki şəxslərə münasibətdə tətbiq edilir.
Həmin şəxslər malları (işləri, xidmətləri) işğaldan azad edilmiş ərazidən kənarda fəaliyyət göstərən şəxslərə təqdim etdikləri, o cümlədən Azərbaycan Respublikası ərazisindən ixrac etdikləri halda, bu maddədə nəzərdə tutulan vergi azadolmaları həmin şəxslərə şamil edilmir.
Qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərdən kənarda fəaliyyət göstərən vergiödəyicisinə təqdim edilən mallara görə vergi azadolması tətbiq edilmir.

# Dövlət Vergi Xidməti planı böyük artıqlaması ilə yerinə yetirir

"İqtisadiyyatda şəffaflaşmanın artması, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, biznes fəaliyyətinin leqallaşdırılması vergi daxilolmalarının dinamik artımı ilə nəticələnir".
Bunu İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib. Nazir qeyd edib ki, bu ilin ilk yarısının yekunlarına görə, Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 41,6% artaraq 9 milyard 181,4 milyon təşkil edib. Bu müddətdə qeyri-neft-qaz sektorundan vergi daxilolmaları ötən ilin eyni dövrü ilə müqayisədə 18,2% artaraq 5 milyard 199,4 milyon manat olub.



# "Bəzən sahibkarlar yüksək risk daşıyan məhsulun ölkəyə idxalına cəhd edirlər"

Bunu Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli "Qida təhlükəsizliyi haqqında" qanunun icrası ilə bağlı bu ilin 6 ayında görülən tədbirlərə dair keçirilən mətbuat konfransında deyib.
O bildirib ki, halbuki, həmin məhsulların heç biri qeydiyyatdan keçməyib: "Sahibkarlar bəhanə gətirir ki, guya kimyəvi maddənin ölkədə qeydiyyata alındığından məlumatsızdırlar. Bu, qeyri-ciddi yanaşmadır. Buradan sahibkarlıq subyektlərinə müraciət edirəm ki, öz fəaliyyət növləri ilə yaxından tanış olsunlar".

# Xarici ticarətdə 6 milyard dollara yaxın müsbət saldo yaranıb

2023-cü ilin yanvar-may aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 185 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 106 ölkəyə məhsul ixrac olunub, 175 ölkədən idxal olunub.
Bu barədə Trend-ə Dövlət Statistika Komitəsindən məlumat verilib.
Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2023-cü ilin yanvar-may aylarında ölkənin xarici ticarət dövriyyəsi 19 milyard 602,3 milyon ABŞ dolları təşkil edib.
Ticarət dövriyyəsinin 12 milyard 763,6 milyon dollarını və ya 65,1 faizini ölkədən ixrac olunmuş məhsulların, 6 milyard 838,7 milyon dollarını (34,9 faizini) isə idxal məhsullarının dəyəri təşkil edib, nəticədə 5 milyard 924,9 milyon dollar məbləğində müsbət saldo yaranıb.
2022-ci ilin yanvar-may ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 8,2 faiz azalıb, real ifadədə isə 2,3 faiz artıb. İdxal real ifadədə 11,1 faiz artıb, ixrac isə 0,5 faiz azalıb.




# AQTA: "Bütün yağlar icazə verildikdən sonra Azərbaycana gətiriləcək"

"Azərbaycana idxal olunan bütün yağlar yüksək riskli məhsullar kateqoriyasına aiddir. Həmin müəssisələrin tərəfimizdən qeydiyyatına icazə verildikdən sonra onların məhsullarının idxalına icazə veriləcək". Bu fikirləri Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli "Qida təhlükəsizliyi haqqında" Qanunun icrası ilə əlaqədar 2023-cü ilin 6 ayı ərzində görülmüş tədbirlərə dair mətbuat konfransı deyib. Onun sözlərinə görə, bir sıra hallarda məhsullar, o cümlədən yağlar barədə qarayaxma kampaniyalar həyata keçirilir:



**"Yağ məhsullarının idxalı və ya satışının monitorinqi tərəfimizdən daim aparılıb. Ticarət şəbəkələrində satışı həyata keçirən şəxslər yağlar barədə alıcıya doğru məlumat vermir və aldadırlar. Onlar spred yağlarını kərə yağı adı ilə təqdim edirlər. Əmin etmək istəyirəm ki, respublika ərazisinə keyfiyyət və təhlükəsizlik göstəricilərində problem olan məhsul keçmir. Dövlət nəzarəti tam təmin olunur".**

# "Уверен, что до конца года будет обеспечено успешное развитие нашей страны"



Шесть месяцев года остались позади. Сейчас можно говорить о некоторых итогах. Уверен, что до конца года будет обеспечено успешное развитие нашей страны.
Об этом, в частности, заявил Президент Азербайджана Ильхам Алиев на совещании, посвященном итогам социально-экономического развития страны в первом полугодии.
«В течение шести месяцев текущего года основным направлением нашей деятельности было обеспечение устойчивого развития страны - развитие ненефтяного сектора, восстановление Карабаха и Восточного Зангезура, продолжение реформ в экономической и социальной сферах. В целом, могу сказать, что за последние полгода наша экономика развивалась, хотя абсолютные показатели не так уж велики», - отметил глава государства.

# МИД Азербайджана призвал Армению выполнить постановление Международного Суда



Как указано в Постановлении Международного Суда (МС) от 6 июля 2023 года, официально опубликованном 11 июля 2023 года, МС единогласно отклонил требование Армении от 12 мая 2023 года о внесении изменений в Постановление Суда от 22 февраля 2023 года по делу Армении против Азербайджана в связи с применением Международной конвенции о ликвидации всех форм расовой дискриминации.
Об этом говорится в заявлении Министерства иностранных дел Азербайджана в связи с искажением со стороны Армении решения о единогласном отклонении ее запроса.
«Таким образом, постановление Суда вновь подтвердило, что просьба Армении изменить постановление от 22 февраля 2023 г. является необоснованным.
Вопреки лжи Армении, Международный Суд не обнаружил, что ППП мешает движению по Лачинской дороге; суд также не обнаружил нарушение Азербайджаном постановление от 22 февраля.
Мы призываем Армению выполнить постановление суда о воздержании от любых действий, которые могут привести к дальнейшей эскалации спора между сторонами, и положить конец действиям, препятствующим работе ППП Лачин», - говорится в заявлении.

# TAP близок к полной загрузке мощностей

Об этом сказал в эксклюзивном интервью Trend управляющий директор по проекту TAP Лука Скьепатти.
Он отметил, что за первые пять месяцев 2023 года по TAP транспортировано более 4,5 миллиарда кубометров газа.
«Текущие долгосрочные мощности TAP (примерно 10 миллиардов кубометров в год) уже распределены между поставщиками газа с месторождения «Шах Дениз» в соответствии с соглашениями о транспортировке газа, подписанными в 2013 году. TAP выделил примерно 5 процентов первоначальной мощности для краткосрочного бронирования. Это в дополнение к уже забронированным мощностям», — добавил Лука Скьепатти.



Управляющий директор отметил, что TAP предлагает рынку доступную краткосрочную мощность, согласно календарю аукционов ENTSOG и сетевому кодексу TAP.
Скьепатти добавил, что объем перевозок по TAP в 2023 году будет зависеть от рыночного спроса.

# В 2023 году расходы на восстановление Карабаха и Восточный Зангезура составят около 12 млрд. манатов

Согласно предусмотренной инвестиционной программе до конца 2023 года расходы на Карабах и Восточный Зангезур составят около 12 млрд манатов, заявил президент Азербайджана Ильхам Алиев.
«Мы все делаем в плановом порядке, там применяются и должны применяться самые высокие стандарты. В целом, согласно предусмотренной инвестиционной программе до конца этого года мы обеспечим расходование на Карабах и Восточный Зангезур средств в размере около 12 млрд манатов», -- сказал Алиев во вторник на совещании, посвященном итогам социально-экономического развития страны в первом полугодии.
Глава государства подчеркнул, что реализация всех работ ведется за счет Азербайджана.
«За исключением двух школ, все остальные инфраструктурные и строительные работы осуществляются за счет бюджета Азербайджана и азербайджанскими государственными компаниями. Одновременно, более десяти мечетей Фонд Гейдара Алиева заново строит или же капитально их восстанавливает», - отметил президент.

## В МИРЕ

# Страны НАТО хотят не допустить создание Ираном ядерного оружия



Страны НАТО намерены не допустить создания Ираном ядерного оружия.
Об этом говорится в заявлении альянса, опубликованном по итогам первого дня саммита в Вильнюсе. Участники саммита выразили обеспокоенность развитием иранской ядерной программы.
Они призвали Иран соблюдать свои международные обязательства, включая соглашение о нераспространении ядерного оружия и резолюцию 2231 Совета Безопасности ООН, и остановить деятельность по созданию баллистических ракет.

# Обсуждено расширение сотрудничества между АБА и ИБР



Состоялась встреча с участием представителей Ассоциации банков Азербайджана (АБА) и Исламского банка развития (ИБР). Основной целью встречи, состоявшейся с участием "Группы экспертов по кредитному делу", действующей при АБА, и делегации группы ИБР, является расширение рамок сотрудничества между Исламским банком развития и Азербайджаном.
В ходе встречи состоялся обмен мнениями об укреплении сотрудничества между АБА и группой ИБР, спросе на Исламское банковское дело в Азербайджане, возможностях содействия долгосрочному финансированию и прямым иностранным инвестициям со стороны иностранных банков.

# "Россия намерена развивать отношения с Турцией на основе взаимной выгоды"

Россия настроена на развитие отношений с Турцией, несмотря на сохраняющиеся противоречия с Анкарой по отдельным вопросам, заявили в Кремле.
«При наличии всех известных разногласий мы намерены развивать наш диалог и наши отношения с Турцией там, где это выгодно нам, и там, где это выгодно им», - сказал журналистам пресс-секретарь президента РФ Дмитрий Песков.
Он ответил на вопрос, не считают ли в Кремле, что Турция в своей внешней политике все больше ориентируется на Запад. Пресс-секретарь президента РФ, ранее работавший в Турции по дипломатической линии, напомнил, что «в истории Турецкой Республики были периоды интенсивного ориентирования на Запад, были периоды менее интенсивного



(взаимодействия с Западом - ИФ)».
«Но мы также прекрасно знаем - если называть вещи своими именами - Турцию никто не хочет видеть в Европе. Я имею в виду европейцев. И здесь наши турецкие партнеры не должны носить розовые очки», - подчеркнул Песков.

# Армения использует автоколонны МККК для незаконной деятельности

Армения использует автоколонны Международного Комитета Красного Креста для незаконной деятельности.
Об этом написал на своей странице в Twitter пресс-секретарь МИД Азербайджана Айхан Гаджизаде.
«Азербайджан был вынужден временно приостановить движение автомобилей МККК по Лачинской дороге из-за контрабанды с использованием автомобилей МККК.
Армения злоупотребляет даже автоколоннами МККК для незаконной деятельности, подрывая основную миссию МККК по гуманитарной деятельности и доверию», - написал он.
Согласно сообщению Госпогранслужбы Азербайджана, на пограничном пункте пропуска «Лачин» неоднократно выявлялись попытки незаконного перевоза различных видов контрабанды на транспортных средствах, принадлежащих Международному комитету Красного Креста. Несмотря на то, что МККК был предупрежден об этом по официальным каналам, незаконные действия повторялись, и не было предпринято необходимых шагов для их устранения.
В связи с фактами контрабанды возбуждено уголовное дело по соответствующим статьям Уголовного кодекса Азербайджанской Республики, и до проведения необходимых следственных мероприятий переход через ППП «Лачин» на государственной границе был временно приостановлен.



# Ərdoğan Baydenlə aktual məsələləri müzakirə edib



Vilnüsdə "LITEXPO" sərgi-yarmarka mərkəzində NATO liderlərinin sammiti çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və ABŞ Prezidenti Co Bayden arasında görüş keçirilib.
Trend xəbər verir ki, görüş zamanı dövlət başçıları gündəlikdəki aktual məsələləri müzakirə ediblər.
Türkiyə tərəfindən görüşdə xarici işlər naziri Hakan Fidan, milli müdafiə naziri Yaşar Gülər, Milli Kəşfiyyat Təşkilatının rəhbəri İbrahim Kalın, Prezident Administrasiyasının kommunikasiya şöbəsinin rəhbəri Fahrettin Altun, müdafiə sənayesi rəhbəri Haluk Görgün və prezidentin baş müşaviri, səfir Akif Çağatay Kılıç iştirak edib.
Ərdoğan iyulun 12-nə planlaşdırılan mətbuat konfransında Türkiyə və ABŞ prezidentlərinin görüşü ilə bağlı açıqlama verəcək.

# Ərdoğan Şarl Mişellə görüşüb

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel ilə görüşüb. TurkicWorld-a istinadla xəbər verirlər ki, bu barədə prezident öz rəsmi Twitter hesabında paylaşım edib. "NATO Liderlər Zirvə toplantımız çərçivəsində dünən bizim Avropa Şurasının prezidenti Şarl Mişel ilə görüşümüz oldu. Biz tarixi əhəmiyyətli zirvəmizi ən səmərəli şəkildə dəyərləndirməyə çalışırıq", - deyə Ərdoğan əlavə edib.




# NATO ölkələri Şimali Koreyanın nüvə proqramını pisləyib

NATO ölkələri Şimali Koreyanın BMT Təhlükəsizlik Şurasının qətnamələrini pozan ballistik raket və kütləvi qırğın silahları proqramlarını kəskin şəkildə pisləyib.
Trend xəbər verir ki, bu barədə alyansın Vilnüs sammitinin birinci günündən sonra dərc edilmiş bəyanatında deyilir.



Bəyanatda KXDR-in nüvə silahlarından, mövcud nüvə proqramlarından, eləcə də digər kütləvi qırğın silahlarından və ballistik raketlərin hazırlanması proqramlarından tam və yoxlanıla bilən formada imtinanın zəruriliyi vurğulanır.
Bundan əlavə, NATO ölkələri Pxenyanı dialoqa qayıtmağa və nüvə silahının yayılmaması rejimi və MAQATE-nin tələblərinə əməl etməyə çağırıb.

# Filippo: "Makron dəlidir!"

Fransanın Ukraynaya uzaqmənzilli SCALP raketləri tədarükü münaqişənin içinə daxil olmaqdır.
Bunu Fransanın sağçı Vətənpərvərlər Partiyasının lideri Florian Filippo öz Tvitter hesabında yazıb.
"Fransa hazırda NATO sammitində ölkəni müharibəyə qatacaq yönümlü bəyanatlar verir. Makron dəlidir! Parlament təcili iclas tələb etməlidir", - deyə o bildirib.






**Azəri Light və Brent markalı neftin bir barelinin 1-12 iyul tarixlərində birja qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

# Yay mövsümündə boğaz ağrısı xəstəlikləri artır

***Yayın isti günlərini yaşayırıq. İnsanlar dəniz sahillərində dincəlir, bölgələrə səfər, xarici ölkələrə səyahət edirlər. Yay aylarında hamı dondurma və sərin sulardan bolluca istifadə edir. Bu da bəzi respirator xəstəliklərin baş qaldırmasına səbəb olur. Yayda da insanların ən çox qarşılaşdıqları xəstəlik boğaz ağrılarıdır.***

**Bununla bağlı Mərkəzi Gömrük Hospitalının otorinolarinqoloqu, t.f.ü.d. Elvin Əzizovla müsahibəni diqqətinizə çatdırırıq.**

***- Elvin həkim, yay mövsümündə ən çox hansı xəstəliklər insanları narahat edir?***

-Yayın gəlişi ilə havanın hərarətinin kəskin qalxması qrip və angina kimi xəstəliklərin yaranmasına şərait yaradır. Mən sizə bu mövsümdə ən çox yayılan boğaz ağrılarından danışmaq istəyirəm. Boğaz ağrısı boğaz nahiyəsində yaranan, udqunma zamanı artan, quruluq və qıcıqlanma hissiyyatı ilə müşayiət olunan bir haldır. Hər bir sağlam insan öz həyatı boyu ən azı bir dəfə boğaz ağrısı ilə qarşılaşıb.

***- Boğaz ağrılarının səbəbləri hansılardır?***

- Boğaz ağrılarının 80%-nin səbəbi kəskin və xroniki faringit, laringit və tonzillitlərdir, digər 20% hallarda bir çox xəstəliklər də boğaz ağrısı şəklində özünü büruzə verə bilər. Boğaz ağrılarına adətən virus və bakteriyalar səbəb olur. Boğazın hansı hissəsinin iltihablanmasından asılı olaraq, boğaz iltihabı faringit, laringit və ya tonzillit adlanır. Udlağın arxa divarının iltihabı faringit, qırtlağın iltihabı laringit, damaq badamcıqlarının iltihabı isə tonzillit adlanır.

***- Bu üç xəstəlik bir-birindən hansı simptomlarla fərqlənir və müalicəsi üçün nə məsləhət görürsünüz?***

- Kəskin faringitlərə ən çox səbəb yuxarı tənəffüs yollarının kəskin respirator virus infeksiyalarıdır. Demək olar ki, bütün kəskin respirator virus infeksiyalarının ilk simptomu özünü kəskin faringit şəklində büruzə verir. Bu zaman boğazda qıcıqlanma, quruluq və ağrı hissiyyatı olur, bədənin hərarəti yüksəlir, ümumi halsızlıq və zəiflik olur. Adətən kəskin faringitlər zamanı pasiyentə daha çox istirahət, bol maye, hərarət yüksələrsə, analgetik və antipiretiklər, eləcə də antivurus preparatlar və boğaz üçün yerli antiseptik qarqara və spreylər təyin edilir.



Xroniki faringitlərin bir çox səbəbləri var. Bunların arasında ən çox allergik rinit və xroniki sinusitlər zamanı burun boşluğundan və paranazal sinuslardan patoloji axıntının burun-udlaqdan udlağa axıb, udlaqda xroniki iltihab yaratması, müntəzəm olaraq siqaret və tütün məhsullarından istifadə edərək udlağın selikli qişasına zərərli təsir, eləcə də qastro-ezofageal reflüks xəstəliyi zamanı, yəni mədə turşuluğunun patoloji şəkildə mədədən ezofaqusa - qida borusuna doğru geri gəlişi zamanı mədə turşuluğunun daim udlağın arxa divarını qıcıqlandırıb xroniki iltihaba səbəb olmasını qeyd etmək olar.
Xroniki faringitlərin müalicəsi ilk növbədə, onları yaradan səbəbi aradan qaldırmaq və yerli olaraq boğaz üçün qarqara, sprey və inhalyasiyalardan, istifadə edərək udlağın selikli qişasını sakitləşdirməkdən ibarətdir.
Kəskin tonzillit, angina dediyimiz damaq badamcıqlarının iltihabına səbəb daha çox streptococcus pyogenesdir, yəni beta hemolitik A qrup streptokok. Angina boğazda kəskin, xüsusən udqunma zamanı qulağa irradiasiya edən ağrı, udqunma çətinliyi, yüksək hərarət şəklində özünü büruzə verir. Angina bakterial infeksiya olduğundan müalicəsi zamanı mütləq antibakterial preparatlardan, yəni antibiotiklərdən istifadə edilir. Kəskin tonzillit, yəni angina bəzən virus xarakterli olub, infeksion mononukleoz - Epşteyn Bar virusu zamanı yarana bilər. Bu zaman biz pasiyentə infeksionistin müayinəsini tövsiyə edirik. Əgər bir insan bir il ərzində 4-6 dəfədən artıq irinli angina ilə xəstələnirsə, bu artıq xroniki tonzillit hesab edilir və xəstəyə damaq badamcıqlarının götürülməsi - tonzillektomiya əməliyyatı tövsiyə edilir.
Kəskin laringitlər həm kəskin respirator virus infeksiyaları zamanı yaranır, həm də bakterial xarakterli olur. Kəskin laringitə səbəb olan bakteriyalardan ən çox Moraxella Catarrhalis, Haemophilus influenzae, Streptococcus pneumoniae bakteriyalarını göstərmək olar. Bu zaman boğazda udqunma və ya danışıq zamanı kəskin ağrı, quruluq, diskomfort, səsdə dəyişiklik - disfoniya və ya afoniya yaranır. Bu zaman biz pasiyentə səs diyetası, yəni səsdən maksimum az istifadə etmək, boğaza yağlı və iltihab əleyhinə spreylər, inhalyasiyalar, bəzən antibakterial və steroid preparatlar, eləcə də antivirus preparatlar təyin edirik. Xroniki laringitlər səsdən çox istifadə zamanı, yəni səs yorğunluğu zamanı, yuxarı tənəffüs yollarının xroniki infeksiyaları zamanı, həmçinin, qastro ezofageal reflüks və xroniki bronxitlər zamanı yarana bilər. Müalicəsi üçün adətən xroniki laringiti yaradan səbəbi aradan qaldırmaq, səs sakitliyi, mədəqoruyucu preparatlar, (qastroprotektorlar), yağ tərkibli spreylər və inhalyasiyalar istifadə edilir.

**Müsahibəni apardı:**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**
**Dilarə Zamanova**

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Mərkəzi Asiya ölkələri şöbəsinin müdiri, iqtisad elmləri doktoru
**DÜNYAMALI VƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

AMEA İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi Tanrıverdi Paşa AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Mərkəzi Asiya ölkələri şöbəsinin müdiri, iqtisad elmləri doktoru
**DÜNYAMALI VƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Mərkəzi Asiya ölkələri şöbəsinin müdiri, iqtisad elmləri doktoru
**DÜNYAMALI VƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500